*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 346-352*

https://doi.org/10.62837/2026.1.346

**MIRZƏYEVA LALƏ ZAUR QIZI**
AMEA Nəsimi adına Dilçilik İnstitutunun doktorantı
2lmirzam@gmail.com
Tel: 070 8092564

# "SAATLI" ONOMASTİK VAHİDİNİN ÇOXCƏHƏTLİ TƏHLİLİ (etimoloji, siyasi onomastik vahid, morfoloji, toponim, etnonim, antroponim kimi)

***Açar sözlər***: *Azərbaycan dili, onomastika, siyasət, siyasi onomastika, Saatlı*
***Key words:*** *the language of Azerbaijan, onomastics, politics, political onomastics,, Saatlı*
***Ключевые слова:*** *Азербайджанский язык, ономастика, политика, политическая ономастика, саатлы*

Dil çox böyük bir xəzinədir. Dil yeganə sahədir ki, digər elm sahələrinin inkişafında rolu var və onların məğzinin açılmasında onları tamamlayır. Dilin özünün də əhatə dairəsi olduqca genişdir. Bunlardan biri də onomologiyadır. Onomologiya dilin, tarixin, coğrafiyanın və s. sahələrin bir sıra məsələlərinin aydınlaşdırılmasında önəmli rol oynayır. Söz siyasi mahiyyət daşıdıqda onun işləkliyi də, əhatə dairəsi də genişlənir. Bu səbəbdən mənbələrə uyğun olaraq tarixin müəyyən mərhələsində siyasi məna götürmüş Saatlı onomastik vahidi, indi toponim kimi bilinsə də, geniş və zəngin dil xəzinəmizin zəngin mənalı vahidlərindəndir.

Qeyd edildiyi kimi dilimizdə mövcud olan çoxsaylı onomastik vahidlərdən biri də Saatlıdır. Saatlı rayonu Mərkəzi Aranda, Araz çayının sağ sahilində yerləşir. Bu rayon Sabirabad, İmişli və Biləsuvar rayonları ilə həmsərhəddir. Bu rayonda bir şəhər və 43 kənd mövcuddur. Rayonun bir hissəsindən Araz çayı keçir.

Dilimizdə mövcud olan çoxsaylı toponimlər kimi Saatlı toponiminin də aydınlaşdırılması böyük bir tədqiqat gərəkdirir. Ən əsası isə tarixi biliklərdən faydalanmağı tələb kimi qarşıya qoyur. Çünki bəzən bir sıra toponimləri aydınlaşdırarkən onun əsasında o ərazinin relyefi, xüsusiyyəti və ya sözün özünü morfoloji təhlil etməklə tapmaq olur. Bu əsasən yeni yaranan və bir sıra köhnə toponimlərdə ola bilir. Bəzən sözlərin özü arxeoloji mahiyyət daşıyır və bunu bilmək toponimi aydınlaşdırmağa kömək edir. Lakin Saatlı toponimi bu xüsusiyyətlərdən uzaqdır. Çünki sözə indiki məzmunu ilə qiymət versək yanılarıq, yəni ona əşya adı bildirən söz kimi yanaşa bilmərik. Bu toponimin mahiyyətindən, məzmunundan, onun daşıdığı tarixiliyi aradan götürməyə səbəb olar. Saatlı toponiminin bu ərazinin xüsusiyyəti, relyefi ilə bağlılığı yoxdur. Saatlı toponimini əsasən etnotoponim kimi xarakterizə edilir. Düzdü bir sıra tədqiqatlarda buna fərqli yanaşma olduğu da üzə çıxır, yəni onu antroponimik toponimika hesab edənlər də var.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 346-352*

Saatlı toponimini mənşə və morfoloji baxımdan yanaşdıqda bu sözün iki hissədən ibarət olduğunu görürük-"Saad" və "-lı". "Saad" sözü toponimik təhlilin əsasını təşkil edir. Belə ki, mənşə baxımından bu söz ərəb mənşəlidir. Hərfi mənada "xoşbəxtlik, mübarək" deməkdir. Bu söz indi də, əsasən, kişi adı kimi ərəb ölkələrində geniş işlənilir. "-Lı" ünsürü isə indi dilimizdə olduğu kimi qədim mənbələrdə də isim və sifət düzəldən şəkilçi kimi işlənilir. Lakin Saatlı toponimindəki "-lı" toponim yaradan, müəyyən bir yerə mənsub olduğunu ifadə edən bir şəkilçidir. Bu şəkilçiyə XVl əsr tərcümə əsəri olan "Şühədnamə" əsərində də rast gəlinir (Hüseyn Vaiz Kaşifinin Kərbəla müsibətlərinə həsr etdiyi və farsca yazdığı Rövzətüs-şühədə" əsəri). Orada da müəyyən bir yerə mənsubluğu ifadə edir. "Kitabi Dədə Qorqud" dastanında da bu şəkilçi işlək olmuşdur. Lakin burada adlar və ləqəblərdə işlənmişdir.

"Saatlı" toponiminin yaranmasına, tarixinə baxdıqda onun əsasında "Çuxur-Səd" və ya "Çuxur Səəd/ Saad" arxaik toponimi ilə bağlı olduğunu görürük. Çuxur-Səd anlayışı 14-cü əsrdə kiçik yer adı kimi tarixi mənbələrdə özünü göstərsə də, 15-ci əsrdə geniş ərazini əhatə edən, Səfəvilər dövründə isə bir ərazi vahidi kimi iki əsr davam edən bəylərbəylik olmuşdur. Çuxur-Səəd bəylərbəyliyi indiki Azərbaycan, İran, Türkiyə, Ermənistan və Gürcüstan ərazilərinin müəyyən və xeyli hissəsini əhatə etmiş və əsasən Arpaçayının aşağı axarı, Arazın sol sahilində yerləşdiyi bildirilir. Bu ada tarixdə ilk dəfə 1428-ci ildə ərəbdilli sənəddə rast gəlinir. Bu anlayış 18-19-cu əsrlərdə də İrəvanda yaşayan Azərbaycanlılar tərəfindən hələ də "Səhəd Çuxuru" şəklində istifadə olunmuşdur. Çuxur-Səəd toponimində "Çuxur" anlayışı müəyyən mənada indiki mənasına yaxın olmuşdur, "çuxur, çökəklik, vadi" mənasındadır. "Saad" hissəsinin isə təhlilində bir çox fikir ayrılıqları tədqiqatlarda özünü göstərir. (2,s.71)

M.H.Vəliyev Saatlı tayfasını səlcuq türk tayfalarından (sadlu, çolaxlı, ayrım, şamlı, təklə, aydınlı, əhmədli, duxər və s.) biri kimi təqdim edir. Monqol işğalı zamanı bir hissəsi tabe olmayaraq bu ərazidən Kiçik Asiyaya köçdüyünü, daha sonra geri gələrək bir hissəsi Cənubi Azərbaycan ərazisinə köçdüyünü və burada Şah Abbasdan "Şahsevənlik-Şahın sevimliləri" adını aldığını, digər qismi isə monqol işğalı zamanı belə bu ərazilərdə qaldığını göstərmişdir. Burada qalanlar isə ayrum, saatlı, axsaxlılar (çolaxlı) olduğu bildirilir. Bu tayfaların sonradan ölkə üzrə müxtəlif yerlərdə məskunlaşdığı qeyd edilir. (2,s.73)

Şərqşünas kimi tanınan digər bir tədqiqatçı V.F.Minoriski isə Çuxur-Səəd toponimindəki "Səəd"-i "Səəd, Saad" şəxs adı ilə əlaqələndirmişdir.

Qaraqoyunlu tarixini araşdıran tədqiqatçı F.Sümer də Qaraqoyunlu tayfa birliyini əmələ gətirən Sadlu oymağını eyni adlı Sadlu tayfası ilə əlaqələndirir. Bu tayfa isə öz adını 14-cü əsrdə Sad adlı şəxsdən aldığını bildirir. Hətta bu tayfanın döyüşlərdə həlledici rol oynadığını bildirmişdir.1374-cü ildə Qaraqoyunlu Bayram Xoca Sadluların köməyi ilə Arazboyu ərazini öz ərazisinə qatmışdır.

Müxtəlif mənbələrində Çuxur-Səəd vilayətinin Səəd adlı bir bəyin başçılığı altında birləşdiyini, bu şəxsin məzarının, türbəsinin İrəvan yaxınlığında Üçkilsə yolunun üzərində olması qeyd edilir. S.Məmmədov da türk əmirliyinin Əmir Səəd tərəfindən yaradıldığını, 1411-ci ildən oğlu Pir Hüseyn başçılıq etdiyini, əraziləri genişləndirdiyini bildirmişdir. Onun fikrinə görə bu tayfalar özünü Əmir Səədin adı ilə özünü Səədli adlandırmışdır. Q.Qeybullayev də bunu etnonimlə əlaqələndirmiş Arpaçayının yuxarı, Araz çayının sol sahili ərazilərinin Saatlı adlandığını bildirmişdir. Qeybullayev bir sıra tədqiqatlarında Əmir Səədin türkmən əmiri olduğunu bildirsə də, onun Ağqoyunlu, yoxsa Qaraqoyunlu əmiri olduğunu göstərməmişdir. Başqa mülahizədə isə Ağqoyunlu əmiri kimi bildirmiş, mənbə təqdim etməmişdir. (2,s.75)

Z.Bayramov da Çuxur-Səədi Sədli tayfası ilə əlaqələndirir və bu adın isə Ağqoyunlu boy adından alındığını bildirmişdir. Ə.Ələkbərli Sədli anlayışını e.ə 7-ci əsrdə bu ərazilərə köçən sak tayfası ilə əlaqələndirmişdir (sakatlı, sakadlı, saadlı). Hətta Ə.Ələkbərlinin yazılarında qeyd etdiyinə əsaslanaraq İrəvan yaxınlığında Cəfərabad kəndində digər tədqiqatçıların qeyd etdiyi kimi, Qaraqoyunlu əmiri Əmir Sədin məzarı üzərində oğlu Pir Hüseyn tərəfindən türbənin tikilməsi, həmçinin özünün də məzarının burda olması fikri bildirilir. Əmir Sədin türk əmiri olması bir daha ifadə olunur. Əmir Sədin Çuxur-Sakat vilayətinin Sakatlı və ya Saatlı boyundan olan Qaraqoyunlu əmiri olduğu deyilir. (7.)

Nihat Çətinkaya “İğdır tarixi” əsərində bu yerin adını saka tayfası ilə əlaqələndirmiş, əvvəllər “Saka yurdu”, “Saka çuxuru” sonralar isə “Səəd ölkəsi” adlandığını göstərmişdir. (6,s.20)

Qeyd edək ki, Sak tayfalarının e.ə 7-8-ci əsrdə bura kimmer. skiflərlə bərabər Cənubi Qafqaza, Azərbaycan, Anadolu və s. kimi geniş əraziyə köç etməsini tarixi faktlar da təsdiq edir. Ümumiyyətlə, bir sıra tarixçilər Saatlı adı ilə bağlı olan Çuxur-Səd ərazisindəki “Səd/ Sad / Səəd” hissəsinin türk tayfası olması, onların ilk başçılarının Əmir Səd olması fikrini ifadə edirlər. Lakin bəzən bu “Sadlu / Sədli” adı saklarla əlaqələndirənlər də olmuşdur. Həmçinin Əmir Sadın Qaraqoyunlu hökmdarlarının qohumu, bəzən əmisi uşağı olduğu da mənbələrdə qeyd edilir. Yuxarıda da qeyd edildiyi kimi Saatlı toponiminin izahı, etimoloji araşdırılması məhz Çuxur-Səəd bəylərbəyliyi və bu bəylərbəyliyinin əsasında duran, ərazinin adının bu cür adlanmasına səbəb olan Sadlu türk tayfası ilə əlaqəlidir. Tarixdən də məlum olduğu kimi Səfəvi-Osmanlı müharibəsi bu ərazinin insanlarının bu ərazilərdən yavaş-yavaş köç etməsinə və Şah Abbasın “Böyük köç” siyasəti nəticəsində bu türk tayfalarının köçməsi müxtəlif yerlərdə məskunlaşmasına, o ərazilərdə öz izlərini müxtəlif formalarda göstərməsi və günümüzə qədər gəlib çıxmasına səbəb olmuşdur. Bir sıra tədqiqatçılar (B.Budaqov, Q.Qeybullayev) 19-20-ci əsrlərdə Borçalı ərazisində Saatlı kəndi olduğunu bildirməsi, 19-cu əsrdə Qarabağ ərazisində Səədli tayfası ilə bağlı toponimlər mövcud olması, hətta Şuşada

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 346-352*

mövcud olan məhəllələrdən, məscidlərdən birinin Saatlı olması, 17-ci əsrdə Osmanlı səlnamələrində Təbriz yaxınlığında Səədabad düzü olması, hazırkı zamanda Azərbaycanın Saatlı inzibati rayonunun olması, Bərdə rayonu ərazisində Saatlı kəndinin olması, Hacıqabul ərazisində Pirsaat, Şamaxı ərazisində Pirsaat ziyarətgahının olması bu etnonimin bu ərazilərlə bağlılığını bir daha sübut edir. Eyni zamanda 1590-cı illərdə Osmanlıların İrəvanla bağlı tərtib etdiyi "İrəvan əyalətinin müfəssəl dəftərində" bu ərazidə Saat adlı kənd adı olması (os ir müf dəf), 18-ci əsrin sonlarında bu ərazilərdə mövcud olan İrəvan xanlığının mahallarından biri Saatlı (Səədli) adlanırdı (İrəvan xanlığının ən qərbində yerləşən kiçik mahal idi, tərkibində 9 kənd vardı, mərkəzi isə Xeyribəyli kəndi idi. (İrəvan xanlığı s.150)).

Saatlı inzibati rayonunda yerləşən bəzi kəndlərin adları da müəyyən tarixi dövrlərlər, xalqlarla əlaqədardır. Bunlardan Qaracalar, Sarıcalar. Varxan, Məzrəli, Gomuşçu, Cəfərxan, Çolpı, Mollavazılı, Hacı Qasımlı və s.

*Sarıcalar-Saatlı ərazisində yerləşən kənd adıdır. Əsl forması "Sarıcalılar" olduğu bildirilir. Cavanşir tayfası Sarıcalılarla ilə əlaqəlidir (Sarıcaəlili qolu). Bu kənd Saatlı rayonu ilə yanaşı Cəbrayıl, Ağdam, Tərtər, Ağcabədi rayonları ərazisində də var. Həmçinin Qərbi Azərbaycan ərazisində Zəngibasar mahalının bir kəndi Sarıcalıdır. "Sarıcalı" türk mənşəli tayfadır. Qarabağ xanı Pənahəli xana bəzən "Sarıcalı Cavanşir "adı ilə tanınır. O zamanlar Pənahəli Xan yaxın dostu Dərgahqulu bəy Sarıcalını Ərdəbilə hakim təyin edir. O da adından göründüyü kimi bu türk boyundan və ya tayfasındandır. 1593-cü ildə Gəncədə toplanan türk tayfalarından, boylarından (otuz ikilər-24 oğuz, 8 qıpçaq) biri Sarıcalı boyu olmuşdur.

Sarıcalı adında kəndlərdən biri də Iğdır ərazisində mövcuddur.

Tarixi mənbələrdə Qarabağ xanı Pənah xanın ölümündən sonra bu türk tayfaları müxtəlif ərazilərə köçdüyü qeyd edilir.

*Məzrəli kənd oykonimi-Saatlı rayonundan əlavə bir sıra rayonlarda da mövcuddur. Məsələn, Qubadlı, Ordubad, Cəbrayıl rayonlarında Məzrə kəndi, İmişli rayonunda isə Məzrəli kəndi mövcuddur. Bu söz ərəb mənşəlidir, "əkin əkiləcək yer, ərazi, əkənək, tarla" mənasındadır. Güman edilir ki, isanların əkin ərazilərində məskunlaşdıqları üçün belə adlandırılıb. Bu tipli kəndlər 18-19-cu əsrdən yaranmağa başlamışdır. Məzrə, Məzrəli, Məzra və s. şəkildə müxtəlif ərazilərdə bu ada rast gəlinir. Eyni zamanda Türkiyə ərazisində-Qars, Ərzurum və s. Mezre kəndi mövcutdur. (4,s.210)

*Gomuşçu oykonimi- Bu ad əslində "Qamışlı/ Kamuşlu /Kamışlı" şəklində olması, bu adın Oğuz türk tayfası bağlı olduğu bildirilir. Əsas olaraq Xəzər və Aral dənizi ərazisində məskunlaşmış türk tayfaları bu ərazini Sarıqamış olaraq adlandırmışlar. Güman etmək olar ki, sonrakı dövrlərdə müxtəlif səbəbdən bu ərazidəki türklərin müxtəlif yerlərə köç etməsi və Qamışlı və buna bənzər kəndlər, məskənlər də bu türk tayfası ilə bağlıdır. Azərbaycan ərazisində yalnız Saatlı rayonunda deyil, Salyan (Gomuşçu formasında), Balakən, Kəlbəcər, Lənkəran,

Astara, Culfa, Cəlilabad və s. ərazilərdə (sözün özü "Qamış" şəklindədir) kənd adları mövcuddur. Toponim lüğətində, əsasən, bu ərazilərin qamışlıq olduğu üçün belə adlandığı qeyd edilir. Həmçinin Təbrizdə Sarıqamış, Zəncanda Qamışlı ərazisi də mövcuddur. Nihat Çətinkaya isə öz əsərində bəzi kəndlərdə qamış bitmədiyi halda belə adlanmasını onun türk-oğuz tayfası ilə əlaqələndirir. 16-cı əsr Osmanlı mənbələrində bu kənd adına xeyli rast gəlinir (Qars, Iğdır və s. kimi ərazilər xüsusiylə) (6,s.202)

Nəticə olaraq, Saatlı onomastik vahidi bir toponim olmaqdan əlavə etnotoponim və tarixin müəyyən dövrlərində dövlət, siyasətlə də bağlı bir siyasi onomastik vahid kimi özünü göstərir. Siyasi mühitin tarix boyu həyatın müxtəlif sferalarına nüfuzu nəticəsində hər bir onomastik vahid öz məzmunundan əlavə siyasi mahiyyət də daşımışdır. Bu da siyasi onomastik vahid anlayışını dilimizə gətirmişdir. Bu sahədə ilk araşdırmalar 1980-ci illərin əvvəllərinə aid olduğu mənbələrdə qeyd edilir. Bu, əsasən, Amerika və Kanadada formalaşmağa başlamışdır. Dilimizdə hər bir söz siyasətlə, dövlətlə bağlılığına uyğun olaraq siyasi mahiyyət qazana, həmçinin zamanla bu xüsusiyyətini itirə də bilər.

## ƏDƏBİYYAT

1. Azərbaycan toponimləri. Ensiklopedik lüğət. "Azərbaycan ensiklopediyası" NEB-200. Səh-588
2. Bəymirzə Şabi oğlu Şabiyev "Azərbaycan Səfəvi dövlətinin İrəvan vilayəti" Bakı-2019
3. Faruk Sümer – "Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü", Güven matbaası. Ankara-1976, səh-290
4. İsgəndər bəy Münşi "Tarix-i aləmara-yi Abbasi" l cild. Bakı, 2009, "Təhsil", səh-792
5. Tofiq Əhmədov "El-oba adları". Bakı "Gənclik"-1984.səh-128
6. Nihat Çətinkaya "Iğdır tarihi". Türk Dünyası Araşdırmaları Vakfı, İstanbul-1996, səh-402
7. https://anl.az/down/meqale/xalqcebhesi/2012/sentyabr/265544.htm

**Lalə Mirzəyeva**

**"Saatlı" onomastik vahidinin çoxcəhətli təhlili (etimoloji, siyasi onomastik vahid, morfoloji, toponim, etnonim, antroponim kimi)**

**XÜLASƏ**

Hər bir ölkənin, xalqın keçmişi onun dilində öz izlərini qoyur. Saatlı onomastik vahidi də xalqımızın tarixi ilə sıx bağlıdır. Bu onomastik vahidin şərhi üçün Azərbaycan tarixinə xüsusi nəzər salınmalıdır. Məqalədə Saatlı onomastik vahidinin hərtərəfli şərhi verilmişdir. Toponimin izahı üçün tarixi mənbələr nəzərdən keçirilmişdir. Müxtəlif faktlarla, baxışlarla toponimin təhlili aparılmışdır. Tədqiqat əsasında Saatlı toponiminin yeni ad olmadığı, zəngin və qədim tariximizlə bağlılığı

sübuta yetirilmişdir. Həmçinin bu adın müxtəlif ərazilərdə, bölgələrdə, ölkələrdə mövcud olması qeyd edilmişdir. Tədqiqat nümunələrlə zənginləşdirilmişdir. Məqalədə Saatlı rayonu ərazisindəki bir sıra kənd oykonimlərinin də izahı verilmişdir. Tədqiqat işində yalnız dilçilik mənbələrindən deyil, tarixi, siyasi, coğrafi mənbələrdən də faydalanılmışdır. Hal-hazırda Saatlı onomastik vahid kimi toponim olsa da, onun antroponimlə bağlı etnonim səciyyəli, müəyyən zamanda siyasi mahiyyətli bir vahid olması da qeyd edilir. Çünki hər bir onomastik vahid asanlıqla siyasi mahiyyət daşıya bildiyi kimi Saatlı onomastik vahidi də yarandığı dövrdə siyasi mühitdə işlək olmuş, siyasi mahiyyətli bir antroponim, etnonim, toponim olmuşdur. Məqalədə bu kimi məsələlər əhatəli qeyd edilmişdir.

**Лала Мирзоева**

**Многоаспектный анализ ономастической единицы «Саатлы» (этимологический, как топоним,как этноним,как антропоним,морфологический анализ,как политико-ономастическая единица)**

**Резюме**

Прошлое каждого народа и каждой страны оставляет свои следы в языке. Ономастическая единица «Саатлы» также тесно связана с историей нашего народа. Для объяснения данной ономастической единицы необходимо обратиться к истории Азербайджана.

В статье дано всестороннее толкование ономастической единицы «Саатлы». Для разъяснения топонима были рассмотрены исторические источники. Анализ топонима проведён на основе различных фактов и подходов.

В ходе исследования доказано, что топоним «Саатлы» не является новым и имеет глубокую связь с древней и богатой историей. Также отмечено его существование в различных регионах и странах. Исследование обогащено конкретными примерами

В статье также даётся объяснение ряда ойконимов (названий населённых пунктов), расположенных на территории Саатлинского района. В исследовательской работе использованы не только лингвистические источники, но и исторические, политические и географические материалы.

В настоящее время ономастическая единица «Саатлы» функционирует как топоним, однако подчёркивается, что она также имеет антропонимическое и этнонимическое значение, а в определённые периоды — и политическую сущность. Поскольку каждая ономастическая единица в зависимости от исторической эпохи может приобретать политическое значение, ономастическая единица «Саатлы» в период своего формирования находилась в политической среде и могла выступать как политически значимый антропоним, этноним и топоним. В статье эти вопросы подробно освещены.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 346-352*

**Lala Mirzayeva**

**Comprehensive analysis of “Saatli” onomastic expression ( as etymological, political onomastic, morphological, toponymic, ethnonym, anthroponym expressions)**

**Summary**

History of every country and nation leaves mark to their native language. “Saatli “ onomastic expression has also been derived to our nation history. In order to interpret this onomastic expression, the Azerbaijan history should have been closely looked into. Comprehensive interpretation of the Saatli onomastic expression has been provided in this article. To describe such toponymic expression the historical sources have been revised. Different facts and views have been used to analyse such toponymic expression.

The research identifies that “Saatli” toponymic expression isn’t a new word, it is proven that this expression has been linked to our rich and old history. This expression has also been used in different places, districts, countries which also has been emphasised in this article. The research enriched with different instances.

In this article, few oikonymic examples have been given which is related to villages of Saatli district. During the research, not only linguistic sources, but also historical, political, geographical sources have been used.

At the moment, the Saatli as onomastic expression carries toponymic meanings, this also relates to entomological features of anthropology, which makes this expression used in political arena time to time. Because, every onomastic expression could carry political significance, Saatli onomastic expression had been used in political arenas as it became known. As a result, the Saatli expression had been used as political significant anthroponym, ethnonym, toponymic expression. These type of expressions have been widely used in this article.

**Rəyçi: prof. Nadir Məmmədli**